azərsu

“AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

BÜLLETEN

№ 01 (61) ● Yanvar-fevral 2019-cu il

www.azersu.az

Qaynar xətt - 955

“Su həyat deməkdir, təmiz su isə sağlam həyat deməkdir”

İlham Əliyev

Regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü dövlət proqramı uğurla icra olunub

səh. 3

2018-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilib

səh. 4-6

Qazax şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri yenidən qurulur

səh. 9

Şəmkirçay su təmizləyici qurğusu yaxın aylarda istismara veriləcək

səh. 10

2018-ci ildə aparılan islahatlar real nəticələr verib

Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Prezident İlham Əliyev 2018-ci ilin ölkəmiz üçün uğurlu olduğunu, dünyada və bölgədə gedən mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik inkişaf etdiyini bildirdi. Ötən il regionların sosial-iqtisadi inkişafı ilə bağlı üçüncü beşillik proqramın başa çatdığını, bu il dördüncü proqramın qəbul olunacağını, keçən il bölgələrə 24 dəfə səfər etdiyini deyən dövlət başçısı ölkəmizdə ictimai-siyasi vəziyyətin sabit olduğunu, xarici siyasət sahəsində də bir sıra uğurların əldə edildiyini, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayının artdığını bildirdi, Ermənistan istisna olmaqla qonşu ölkələrlə əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Dövlət başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan Tərəfdaşlıq Prioritetləri sənədinin əhəmiyyətini vurğuladı, Azərbaycanın bu ildən Qoşulmama Hərəkatına sədrlik edəcəyini dedi, Xəzər dənizinin hüquqi statusu ilə bağlı imzalanan Konvensiyada ölkəmizin mövqeyinin əksini tapdığını bildirdi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışarkən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq. Prezident İlham Əliyev onu da qeyd etdi ki, 2018-ci ildə hərbi sahədə böyük nailiyyətlər qazanılıb, uğurlu Naxçıvan əməliyyatı nəticəsində 11 min hektar torpağa tam nəzarət olunur. Dövlətimizin başçısı xüsusi vurğuladı ki, 2018-ci ildə üçüncü peykimiz orbitə buraxılıb, Cənub Qaz Dəhlizinin rəsmi açılışı olub, TANAP layihəsi işə düşüb, Ələt Beynəlxalq Ticarət Limanı fəaliyyətə başlayıb. 2018-ci ili həm də dərin islahatlar dövrü kimi xarakterizə edən dövlət başçısı əsas iqtisadi göstəricilərdən danışarkən bildirdi ki, ötən il ümumi daxili məhsul 1,4 faiz qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı isə 4,6 faiz artıb. Valyuta ehtiyatları 45 milyard dollara çatıb, ölkədə 118 min daimi iş yeri yaradılıb.

Sonra maliyyə naziri Samir Şərifov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev 2018-ci ildə görülən işlər və qarşıda duran vəzifələr haqqında məruzə etdilər.

Yekun nitqində 2019-cu ildə qarşıya qoyulan vəzifələrin icra olunacağına əminliyini ifadə edən Prezident İlham Əliyev bildirdi ki, vergi və gömrük sahəsində aparılan islahatlar çox böyük əhəmiyyət daşıyır. Dövlət başçısı həmin sahələrdə şəffaflığın, dürüstlüyün təmin edildiyini, korrupsiyaya qarşı güclü mübarizənin aparıldığını, sağlamlaşdırma prosesinin getdiyini və artıq gözəl nəticələrin əldə edildiyini vurğuladı. Bu il də infrastruktur layihələrinin icra ediləcəyini deyən Prezident İlham Əliyev içməli su təminatı ilə bağlı tədbirlərin həyata keçiriləcəyini vurğuladı: ***"İçməli su ilə bağlı aparılan işlər nəticəsində 38 şəhərin su məsələsi tam şəkildə öz həllini tapıb. Hazırda 12 şəhərdə işlər gedir və yaxın gələcəkdə o şəhərlərin də içməli su ilə tam təminatı təşkil ediləcəkdir. Bu il beş şəhərdə işlər başa çatacaq. Bu sahədə görülən işlər daim diqqət mərkəzindədir. İçməli su layihələrinin icrası insanların sağlamlığına verilən böyük töhfədir".***

Bu il yeni məktəblərin, tibb müəssisələrinin, olimpiya idman komplekslərinin, "ASAN xidmət" mərkəzlərinin, xalça fabriklərinin tikiləcəyini deyən Prezident İlham Əliyev sahibkarlığın inkişafı ilə bağlı əlavə addımların atılacağını, xaricdə yeni ticarət evlərinin açılacağını qeyd etdi, ölkədə yeni sənaye parklarının və məhəllələrinin yaradılmasının əhəmiyyətinə toxundu, kənd təsərrüfatında, həmçinin turizm sahəsində islahatların nəticə verəcəyinə əmin olduğunu bildirdi.

Sonda Prezident İlham Əliyev böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq 2019-cu ili "Nəsimi İli" elan etdiyini bildirdi.

Yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfrans keçirilib.

Regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü dövlət proqramı uğurla icra olunub

Konfransda Prezident İlham Əliyev çıxış edərək bildirib ki, son 15 ildə Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf edib, ümumi daxili məhsul 3,3 dəfə artıb. Sənaye istehsalı 2,6 dəfə, ixrac 4,7 dəfə, valyuta ehtiyatları 24 dəfə artıb və 45 milyard dollar təşkil edir.

Prezident deyib ki, aparılan uğurlu siyasət ölkəmizə böyük həcmdə vəsaitin, sərmayənin yatırılmasına gətirib çıxarıb. 15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və bu sərmayənin yarısı xarici investisiyadır.

Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılıb. Maaşlar 7, pensiyalar 9 dəfə artıb. Bu illər ərzində 3 min 200-dən çox məktəb, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, bölgələrdə 44 olimpiya mərkəzi yaradılıb.

Dövlət başçısı bildirib ki, məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olub. Son illər ərzində yüzdən çox köçkün şəhərciyi tikilib, köçkünlərə təqdim edilib. Şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil təqdim edilib.

Bu illər ərzində Azərbaycan kosmik dövlətə çevrilib və artıq üç peykimiz var. Bu, həm innovasiyadır, həm biznesdir, həm də müasirlikdir. İnnovasiyalara gəldikdə, bu gün dünyada Azərbaycan məhsulu kimi tanınan "ASAN xidmət" brendi vardır.

Prezident qeyd edib ki, iqtisadiyyatımızın əsas sahəsi neft-qaz sektorudur. Ötən il qeyri-neft sənayesi 9,1 faiz artıb. Bu, onu göstərir ki, həmin sahədə işlər yüksək səviyyədə aparılır. Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiya Parkı, Mingəçevir Yüngül Sənaye Parkı, Gəncə şəhərində sənaye müəssisələrinin, Neftçala, Hacıqabul, Masallı, Sabirabad sənaye məhəllələrinin yaradılması bu sahədə atılan çox ciddi addımlardır. Sənaye potensialının inkişafı üçün, əlbəttə, sənaye zonalarının, sənaye parklarının çox böyük rolu var.

Ölkə başçısı tikinti sektoru üzrə dövlət xətti ilə böyük layihələrin icra edildiyini diqqətə çatdırıb. Sosial evlərin tikintisinin çox böyük əhəmiyyət daşıdığını, vətəndaşların bundan istifadə etdiyini, eyni zamanda bunun tikinti sektoruna da çox ciddi təkan verdiyini bildirib.

Prezident İlham Əliyev proqram çərçivəsində icra olunmuş infrastruktur layihələrindən, xüsusilə əhalinin içməli su ilə təchizatının yaxşılaşdırılması istiqamətində görülmüş işlərdən danışıb. Dövlət başçısı növbəti regional inkişaf proqramında da su layihələrinin əksini tapacağını vurğulayıb: " Hazırda 38 şəhərdə içməli su layihələrinin icrası başa çatıb, bu il 5 şəhərdə başa çatacaqdır və 12 şəhərdə işlər artıq başlanıb, gedir və bir neçə şəhərdə hələ ki, başlanmayıb. Bu məsələlər daim gündəlikdədir və qəbul ediləcək dördüncü proqramda da öz əksini tapacaq."

Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının tərkibinin, əsasən, yerlərdən gələn xahişlər nəticəsində formalaşdığını deyib: "Mənim bölgələrə çoxsaylı səfərlərim və vətəndaşlarla söhbətlərim bu sahədə çox gözəl bir ünsiyyət yaradıb. Çünki vətəndaşların təklifləri mütləq nəzərə alınır və bölgələrdə bir çox layihələr məhz vətəndaşların təklifləri əsasında reallaşıb.

İlkin hesablamalara görə, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Hesablanıb ki, bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir.

2018-ci ilin yekunlarına və qarşıda duran

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin 2018-ci il üzrə fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

İclası giriş sözü ilə açan **"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov** bildirib ki, 2018-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin yaradıb. Dövlət başçısının əhalinin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya xidmətlərinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq 2018-ci ildə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən kompleks tədbirlər həyata keçirilib.

Ötən il Prezident İlham Əliyevin iştirakı ilə Xaçmaz və Xızı şəhərlərində, həmçinin Altıağac qəsəbəsində su və kanalizasiya şəbəkələri, Mingəçevir və Astara şəhərlərində isə içməli su şəbəkələri istismara verilib. Eyni zamanda Ağcabədi, Daşkəsən şəhərlərində su və kanalizasiya, Biləsuvar şəhərində kanalizasiya şəbəkələrinin tikintisi yekunlaşıb. Şamaxı, Gədəbəy, Lerik və Tovuz şəhərləri üçün alternativ mənbələrin yaradılması layihələri icra olunub.

Dövlət başçısının "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 09 aprel 2018-ci il tarixli sərəncamı, həmçinin dövlət investisiya layihəsi çərçivəsində içməli su çatışmazlığının müşahidə edildiyi 18 rayonun 41 kəndində layihələr icra olunub. Bu kəndlərdə 325 km magistral və paylayıcı su xətləri çəkilib, əhalinin ümumi istifadəsi üçün 1120 bulaq quraşdırılıb.

2018-ci ildə Bakı şəhəri və Abşeron yarımadasında mühüm layihələr icra olunub. Avtomobil yollarının yenidən qurulması çərçivəsində Babək prospekti, Təbriz, Xiyabani, Mir Cəlal və Məsud Davudoğlu küçələrində su və kanalizasiya xətləri yenilənib.

Hesabat dövründə 1162 km magistral və şəbəkə su xətləri, 335 km kanalizasiya kollektoru və xətləri, 8 su anbarı inşa edilib, 26 subartezian quyusu qazılıb. Görülmüş işlər nəticəsində Bakı şəhəri və ətraf qəsəbələrdə, eləcə də regionlarda 48 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təchiz edilib, 97 min nəfərin su təchizatı fasiləsiz rejimə keçirilib. Bununla da, fasiləsiz içməli su ilə təmin olunan əhalinin xüsusi çəkisi ölkə üzrə 69 faizə, Bakı şəhəri üzrə isə 81,5 faizə yüksəlib.

Ötən il bölgələrdə regional laboratoriyaların yaradılmasına başlanılıb. 5 yeni elektron xidmət istifadəyə verilərək xidmətlərin sayı 16-ya çatdırılıb. 2018-ci ildə "Azərsu" ASC yenidən Dünya Su Şurasının İdarə Heyətinə üzv seçilib.

Sonra müxtəlif sahələr üzrə 2018-ci ildə görülmüş işlər və həyata keçirilmiş tədbirlər barədə hesabatlar dinlənilib.

İqtisadiyyat və Uçot İdarəsinin rəisi Yaşar Kəlbiyev bildirib ki, 2018-ci ildə istehlakçılara su satışı əvvəlki ilə nisbətən 5,5 faiz artaraq 265,4 milyon kubmetr, kanalizasiya xidmətləri isə 3,7 faiz artaraq 176,2 milyon kubmetr olub. Su təchizatı və kanalizasiya xidmətləri üzrə yığım proqrama nisbətən 3,1 faiz artaraq 195,4 milyon manat təşkil edib. Ötən illə müqayisədə artım 6 faiz və ya 10,9 milyon manat olub. Hesabat ilində

vəzifələrə həsr olunmuş iclas keçirilib

istehsal-istismar xərcləri ötən ilə nisbətən 3,1 faiz azalaraq 312,4 milyon manat təşkil edib. İstehlakçılara göstərilən su və kanalizasiya xidmətləri üzrə maya dəyəri 130 qəpik olmaqla, orta satış qiymətini 56 qəpik, yaxud 75 faiz üstələyib. Cəmiyyətin əməliyyat fəaliyyətindən daxilolmaları 213,3 milyon manat, əməliyyat fəaliyyəti üzrə ödənişlər 223,6 milyon manat təşkil edib.

Müştəri xidmətləri departamentinin rəisi Əbülfəz Kərimzadə çıxışında qeyd edib ki, 2018 ci ildə 1 457 260 abonentə su təchizatı və tullantı sularının axıdılması xidmətləri göstərilib. İlin əvvəlinə nisbətən abonent sayında 47 min artıb. Hesabat dövründə abonentlərə 200,2 mln manat dəyərində su təchizatı və tullantı suların axıdılması xidmətləri göstərilib, 195,3 mln manat ödəniş təmin olunub. Bu da ötən ilin müvafiq dövrünə görə satışda 9,3 mln manat, ödənişdə isə 10,8 mln manat artım deməkdir. 2018-ci ildə əhali üzrə abonentlərin 85,9 faizi ödənişdə iştirak edib. İl ərzində 1 milyon 102 mindən çox müraciət daxil olmuşdur. Asan Xidmət mərkəzlərinə 35 466, Asan Kommunal mərkəzlərinə 47 784 müraciət daxil olub. Ötən il əhali abonentləri üzrə MİS-in tətbiqi tam başa çatdırılıb. Qeyri-əhali abonentləri üzrə bu il tam başa çatdırılacaq.

Texniki istehsalat departamentinin rəisi Aydın Abbasov çıxış edərək bildirib ki, 2018-ci ildə su mənbələrində istehsal qurğularının dayanıqlı iş rejiminin, şəbəkənin optimal yük və təzyiq rejimlərinin təmin edilməsi üçün, mənbələrdə, texnoloji qurğularda, magistral kəmərlərdə və supaylayıcı şəbəkələrdə mütəxəssislərimiz tərəfindən təhlillər aparılıb, təhlillərin nəticəsi olaraq qurğu və şəbəkələrin iş rejimləri daimi nəzarətdə saxlanılmaqla əhalinin su təchizatının fasiləsiz dayanıqlılığı təmin edilib. Magistral su kəmərlərində suyun nəqli zamanı potensial çirklənməni yarada bilən səbəblərin aradan qaldı-

rılması üçün əsaslı işlərin görülməsi müsbət nəticələrini verir. Planlaşdırma və keyfiyyətə nəzarət departamenti və İstismar idarələri ilə birgə mənbələrdə və magistral kəmərlərdə yük və təzyiq rejimlərinin təhlili, suyun nəqli zamanı itkilərin minimuma endirilməsi, suyun keyfiyyət göstəricilərinin yaxşılaşdırılması ilə bərabər magistral kəmərlər boyu abonentlərə verilən suyun idarə olunmasının təmin edilməsində müsbət irəliləyişlər əldə olunub.

Tikilməkdə Olan Obyektlərin Müdiriyyətinin direktoru Səid Salayev bildirib ki, hesabat dövründə ölkə ərazisində ümumilikdə 1075 km

şəbəkə, 86 km magistral su xətləri, 325 km kanalizasiya və 10 km-ə yaxın yağış suları xətləri çəkilib. 2018-ci ildə regionlarda və Abşeron yarımadasında həcmi 14 min kubmetr olan 8 su anbarı tikilib, 23 subartezian quyusu qazılıb və 1120 su bulağı, 98300 ədəd sayğac quraşdırılıb. Görülmüş işlərdən ümumilikdə 400 minə yaxın insan faydalanıb. "İstehlakçıların suölçən cihazlarla təmin edilməsi ilə bağlı Əlavə tədbirlər haqqında" Prezidentin Sərəncamının icrasına uyğun olaraq Abşeron yarımadasında 49450 su sayğacları quraşdırılıb, 42 km məhəllədaxili şəbəkə su xətləri çəkilib. Eyni zamanda respublikanın 27 rayonunda 6501 sayğac quraşdırılıb.

"Birləşmiş Sukanal" MMC 2 saylı Regional Sukanal İdarəsinin rəisi Əvəz Nəbiyev çıxış edərək bildirib ki, 2 saylı Regional Sukanal İdarəsi üzrə 50250 abonent mövcuddur. İdarənin əhatə etdiyi 8 rayon 6 mənbədən qidalanır. Ötən il istehlakçıla-

ra 8,2 mln kubmetr su verilib, su və kanalizasiya xidmətləri üzrə ödəniş səviyyəsi 105,7 faiz, o cümlədən əhali üzrə 104,8 faiz qeyri-əhali üzrə isə 107,8 faiz təşkil edib.

"Azərsu" ASC-nin strategiyasını nəzərə alaraq 2019-cu ildə uçotun dürüstləşdirilməsi və abonent sayının artırılması, mövcud mənbələrdən və modul tipli sutəmizləyici qurğulardan səmərəli istifadə etmək, xidmət səviyyəsini yüksəltməklə müştəri məmnunluğunu artırmaq, abonentlərin müraciətlərinə obyektiv və çevik yanaşmaq, marifləndirmə işini gücləndirmək, baş verən qəzaları operativ və keyfiyyətli bərpa etməklə itki faizini azaltmaq, satışa görə ödəniş faizini artırmaqla debitor borcu azaltmaq tədbirləri davam etdiriləcək.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov iclasa yekun vuraraq görüləcək işlər və qarşıda duran vəzifələr barədə tapşırıqlar verib. Bildirib ki, bu il Ağdaş, Qəbələ və Xırdalan şəhərlərində su və kanalizasiya şəbəkələrinin tikintisi yekunlaşacaq. Eyni zamanda Daşkəsən, Göyçay, Qəbələ şəhərlərində tullantı sutəmizləyici qurğuların inşası tam başa çatacaq. 2019-cu ildə Qazax və Horadiz şəhərlərində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrasına, 10-dan çox şəhərdə isə tullantı sutəmizləyici qurğuların tikintisinə başlanılacaq. Bu il içməli sudan əziyyət çəkən kəndlərdə layihələrin, binadaxili kommunikasiya xətlərinin yenilənməsi və sayğaclaşma işlərinin davam etdirilməsi nəzərdə tutulur. 2019-cu ildə müştəri xidmətləri sahəsində də mühüm tədbirlər həyata keçiriləcək.

Səhmdar Cəmiyyətinin sədri 2019-cu ildə islahatların davam etdirilməsi, yeni regional idarələrin və laboratoriyaların yaradılması, iqtisadi səmərəliliyin artırılması, abonentlərlə işin təkmilləşdirilməsi barədə müvafiq tapşırıqlar verib.

20 yanvar - Ümumxalq Hüzn Günü münasibəti ilə anım mərasimi keçirilib

"Azərsu" Açıq Səhmdar Cəmiyyətində 20 yanvar - Ümumxalq Hüzn Günü münasibəti ilə anım mərasimi keçirilib. Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

"Azərsu" ASC sədrinin birinci müavini Teyyub Cabbarov bildirib ki, 20 yanvar Azərbaycan tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuş, müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xüsusi təyinatlı qoşun birləşmələrinin Bakıya yeridilməsi nəticəsində 147 mülki vətəndaş öldürülüb, 600-dən çox insan yaralanıb. 29 il əvvəl xalqın azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar.

Azərbaycan xalqının ən çətin günlərində xalqla bir yerdə olan ümummilli lider Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, xarici jurnalistlər qarşısında imperiyanın və Mixail Qorbaçovun xalqımıza düşmən siyasətini qətiyyətlə ifşa edib. Ulu öndərin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra bu hadisələrə tam siyasi-hüquqi qiymət verilib. 1994-cü ildə Milli Məclisin qəbul etdiyi xüsusi qərarda 20 yanvar tarixi - Ümumxalq Hüzn Günü elan edilib.

Yanvar faciəsi qurbanlarının əziz xatirəsini həmişə uca tutan Möhtərəm Prezident İlham Əliyev onların adlarının əbədiləşdirilməsi, şəhidlərin ailə üzvlərinə maddi və mənəvi qayğı göstərilməsinə daim diqqətlə yanaşıb. Hər il faciənin ildönümü günündə Şəhidlər Xiyabanına gələn dövlət başçısı 20 yanvar qurbanlarının xatirəsini ehtiramla yad edir.

Anım mərasimində su təsərrüfatında çalışmış Cəbrayıl Xanməmmədovun faciə günü həlak olması, su təsərrüfatı işçilərindən Tərənə İmanova, Xariz Alimov, İvan Proxorov, Kamil Həzrətquliyev və Hüseyn Quliyevin yaralandığı xatırlanıb.

Tədbirə dəvət olunmuş tarixçi alim Vahid İsmayılov Sovet imperiyasının və erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdiyi məkrli siyasəti tarixi faktlarla əsaslandıraraq, 20 yanvar hadisələrini milli azadlıq hərəkatının növbəti mərhələsi, xalqımızın qəhrəmanlıq və şücaətinin simvolu kimi qiymətləndirib. Qeyd olunub ki, bu qanlı hadisə sovet imperiyasının qəddar siyasətini təsdiq etməklə yanaşı, xalqımızın azadlıq əzmini, müstəqillik və dövlətçilik ideyalarına sıx bağlı olduğunu bir daha nümayiş etdirdi.

Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Akif Məmmədov və şəhid Cəbrayıl Xanməmmədovun həyat yoldaşı Şövkət Xanməmmədova çıxış edərək şəhidlərimizin fədakarlığının gələcək nəsillər üçün qəhrəmanlıq nümunəsi olduğunu bildiriblər. Qeyd olunub ki, 1990-cı ilin 20 yanvarında Azərbaycan xalqına qarşı həyata keçirilmiş qətllər insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır.

2 fevral – Azərbaycan Gəncləri Günü qeyd olunub

2 fevral – Azərbaycan Gəncləri Günü münasibəti ilə "Azərsu" Açıq Səhmdar Cəmiyyətində tədbir keçirilib. Əvvəlcə Azərbaycanda dövlət gənclər siyasətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov çıxış edərək bildirib ki, Azərbaycanda gənclər siyasəti hər zaman dövlət siyasətinin əsas tərkib hissəsi kimi xüsusi yer tutur. Ölkəmizdə Gənclər Gününün qeyd olunması gənc nəslin problemlərinin həllinə xüsusi önəm verən, gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Gənclər və İdman Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi, gənclər siyasəti ilə bağlı dövlət proqramlarının qəbulu ümummilli liderin gənclərə böyük qayğısının bariz nümunəsi idi.

Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə, yüksək ideyalara malik gənclər formalaşır. Ölkəmizdə gənclər siyasətinin həyata keçirilməsi ardıcıl və məqsədyönlü xarakter daşıyır, bu sahədə bir çox dövlət proqramları uğurla icra olunur. Ulu öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edən Prezident İlham Əliyev gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər təşkilatlarının formalaşması və inkişafına diqqət və qayğı ilə yanaşır. Gəncliyə dövlət qayğısı sağlam və intellektual nəslin formalaşmasına xidmət edir, gələcəyə böyük inamla baxmağa əsas verir.

"Azərsu" ASC-nin İşlər İdarəsinin rəis müavini Rahid Fətəlizadə çıxış edərək bildirib ki, gənclər siyasəti bütün sahələrdə olduğu kimi su təsərrüfatı sektorunda da uğurla həyata keçirilir. Gənc peşəkar kadrların hazırlanması və onların potensialından lazımınca istifadə olunması kimi məsələlərə xüsusi diqqət yetirilir.

Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Akif Məmmədov su təsərrüfatında çalışan gənc işçilərin sosial müdafiəsinin gücləndirilməsi və motivasiyasının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

"Azərsu" ASC-nin gənc mütəxəssisləri Ayxan Məmmədov və Əminə Qəyumova gəncliyə göstərilən dövlət qayğısından danışıb, Azərbaycan gəncliyinin xoşbəxt və firavan gələcəyə doğru uğurla addımladıqlarını bildiriblər.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov tədbirə yekun vuraraq son illər "Azərsu" ASC tərəfindən həyata keçirilən bir sıra layihələr üzrə əldə olunan nailiyyətlərdə gənc mütəxəssislərin mühüm rolunun olduğunu xatırladıb. Bu uğurların davamlı olması üçün tövsiyələr verən sədr gənc mütəxəssislərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirin sonunda əmək fəaliyyətində fərqlənən gənc mütəxəssislərə fəxri fərmanlar təqdim olunub.

Tədbir iştirakçıları Azərbaycan Gəncləri Günü münasibəti ilə ağacəkmə aksiyasında da iştirak edib. Tədbirin məqsədi gənclər arasında ekoloji mədəniyyətin formalaşması prosesinə töhfə vermək, ətraf mühitin qorunması və ekoloji problemlərə qarşı mübarizədə gənc nəsli birgə fəaliyyətə səsləmək olub. Yaşıllaşdırma tədbiri çərçivəsində yüzlərlə ağac əkilib, ərazidə abadlaşdırılma işləri aparılıb.

Qazax şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri yenidən qurulur

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti daha bir şəhərdə yeni su və kanalizasiya layihəsinin icrasına başlayır. Yaxın vaxtlarda Qazax şəhərində içməli su təchizatı və kanalizasiya infrastrukturlarının yenidən qurulması üzrə tikinti işlərinə start veriləcək. Bu münasibətlə Qazax Rayon İcra Hakimiyyətində layihənin təqdimat mərasimi keçirilib. Rayon ictimaiyyətinin, "Azərsu" ASC-nin, məsləhətçi və podratçı təşkilatların nümayəndələrinin iştirak etdiyi təqdimatda layihənin məqsədi, faydası, tikinti-quraşdırma işlərinin icra qrafiki, ekoloji əhəmiyyəti barədə ətraflı məlumat verilib.

Tədbirdə **Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov** bölgələrin inkişafını təmin edən uğurlu islahatlardan, dövlət proqramlarından danışıb. Cəbhə bölgəsində yerləşən Qazax rayonunda su və kanalizasiya layihəsinin icrasına başlanmasını əhalinin sosial problemlərinin həllinə göstərilən yüksək qiymət kimi dəyərləndirib.

"Azərsu" ASC-nin sədr müavini Etibar Məmmədov əhalinin içməli su və kanalizasiya xidmətləri ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, Prezident İlham Əliyev şəhər və rayon mərkəzlərinin, həmçinin kəndlərin içməli su təchizatının yaxşılaşdırılmasını daim diqqətdə saxlayır. Qazaxda icra olunacaq yeni layihə bu sahədə görülən işlərin davamıdır.

Layihə və podrat təşkilatların nümayəndələri tikinti-quraşdırma işlərinin vaxtında və keyfiyyətli icrası üçün bütün lazımi tədbirlərin görüləcəyini bildiriblər.

Sonra Qazax şəhərinin su təchizatı sisteminin və kanalizasiya şəbəkəsinin tikintisi layihəsinin təqdimatı olub. Təqdimatda bildirilib ki, Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı" çərçivəsində həyata keçirilir. Layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Qazax şəhərində 26 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Bu layihə çərçivəsində gələcəkdə Qazax rayonunun Ağköynək, Qarapapaq, Hüseynbəyli və Ağstafa rayonunun Dağ Kəsəmən kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə bu layihədən 45 min sakin faydalanacaq.

Qazax şəhərində əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 6,4 km magistral su kəməri, ümumi tutumu 10 min kubmetr olan 2 ədəd su anbarı, 106,4 km paylayıcı su şəbəkəsi inşa ediləcək. Bununla paralel olaraq şəhərin kanalizasiya infrastrukturu da yenidən qurulacaq. Şəhər ərazisində 82,3 km uzunluğunda kanalizasiya şəbəkəsi yaradılacaq və 4,4 km kanalizasiya kollektoru tikiləcək. Ümumilikdə şəhərdə 5870 ünvan su və kanalizasiya şəbəkələrinə qoşulacaq və sayğaclar quraşdırılacaq. İçməli su və kanalizasiya şəbəkələrinin tikintisinin 2020-ci ilin sonunda başa çatdırılması planlaşdırılır.

Şəhərdə yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə gələcəkdə məhsuldarlığı sutkada 10 min kubmetr olan tullantı sutəmizləyici qurğu tikiləcək.

Şəmkirçay su təmizləyici qurğusu yaxın aylarda istismara veriləcək

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bölgələrdə içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı mühüm layihələr həyata keçirir. Respublikamızın qərb bölgəsində əhalinin etibarlı və dayanıqlı içməli su təminatına hesablanmış Şəmkirçay sutəmizləyici qurğusunda işlər son mərhələdədir.

Şəmkirçay su anbarının ehtiyatının daxili mənbələr hesabına formalaşması ölkəmizin su təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır. Ümumi su tutumu 165 milyon kubmetr olan anbarın potensial ehtiyatı dayanıqlı içməli su təchizatı baxımından mühüm əhəmiyyət daşıyır. Üstəlik burada toplanan yerüstü suların təbii durulmadan keçməsi suyun emalını asanlaşdırır. Bütün bunlar nəzərə alınaraq "Azərsu" ASC-nin sifarişi ilə su anbarının yaxınlığında məhsuldarlığı sutkada 140 min və ya saniyədə 1,6 kubmetr olan sutəmizləyici qurğu tikilir. Kompleksdə hər birinin tutumu 2500 kubmetr olan 3 ədəd su anbarı, anbarların idarəetmə otağı, xlorator qurğusu, elektrik yarımstansiyası inşa edilib, ehtiyat generator alınaraq ərazidə quraşdırılıb. Hazırda qurğuda emal avadanlıqlarının quraşdırlması işləri aparılır.

Qurğunun su təminatı Şəmkirçay su anbarından ayrılan suvarma kanalı hesabına aparılacaq və artıq kanaldan suyun götürülməsi üçün daşıyıcı xətlər tikilib. Buradan götürülən qurğuda su qum süzgəclərində təmizləndikdən sonra anbarlara ötürüləcək. Anbarlara daxil olan və çıxan suyun miqdarı və təzyiqi, anbarlarda suyun həcmi, siyirtmələrin iş rejimi və işçi vəziyyəti, eləcə də suyun bulanıqlıq səviyyəsi və qalıq xlorun miqdarı onlayn rejimdə tənzimlənəcək. Bütün bu proseslərə SCADA sistemi vasitəsilə nəzarət olunacaq.

Regionlarda tikilən ən böyük içməli sutəmizləyici qurğunun bu ilin birinci yarısında istismara verilməsi nəzərdə tutulur. Müasir texnologiya əsasında tikilən yeni qurğu Gəncə, Şəmkir, Samux şəhərləri və ətraf kəndlərdə 300 mindən artıq insanı keyfiyyətli və fasiləsiz içməli su ilə təmin edəcək.

Şəmkirçay sutəmizləyici qurğusu istismara verildikdən sonra bu mənbədən Gəncə şəhərinə saniyədə 1141 litr, Şəmkir şəhərinə 187 litr, Samux şəhərinə 85 litr, kəndlərə isə 50 litr içməli su veriləcək. Şəmkirçay sutəmizləyici qurğusundan Gəncə şəhərinə suyun verilməsini təmin etmək üçün uzunluğu 27,5 km olan magistral su kəmərinin tikintisi artıq yekunlaşıb, bu kəmərdən Samux şəhəri və rayonun bəzi kəndlərinə, eləcə də Göygöl rayonunun bir sıra kəndlərinin su təchizatını yaxşılaşdırmaq məqsədilə çıxışlar verilib. Bununla yanaşı, qurğudan Şəmkir şəhərinədək 16,5 kilometr uzunluğunda magistral su kəməri tikilərək şəhər şəbəkəsinə birləşdirilib.

Qeyd edək ki, son 10 ildə həyata keçirilən içməli su layihələri çərçivəsində məhsuldarlığı sutkada 1,6 milyon kubmetrdən çox olan 39 yeni içməli su mənbəyi yaradılıb.

Binəqədi rayonunda yeni içməli su layihələrinin icrasına başlanılıb

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti Bakı şəhəri və ətraf qəsəbələrdə əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə layihələrin icrasını davam etdirir. Səhmdar Cəmiyyətin Tədbirlər Planına uyğun olaraq Binəqədi rayonunda yeni layihələrin icrasına başlanılıb.

Binəqədi rayonunda icra olunan layihələr bir neçə istiqamətdə həyata keçirilir. Hazırda Binəqədi qəsəbəsi Fəxrəddin Qurbanov və Xocasən qəsəbəsi Ruslan Allahverdiyev küçələrində, həmçinin ATS yolu adlanan ərazidə yeni içməli su şəbəkələri yaradılır. Qeyd edək ki, bu ərazilərdə içməli su təchizatı əhali tərəfindən primitiv qaydada yaradılmış şəbəkələr hesabına aparılır. Mövcud şəbəkələr su təchizatında çətinliklər yaradır. Belə ki, bu ərazilərdə tez-tez qəzalar baş verdiyindən suyun təzyiqini artırmaq mümkün olmur. Nəticədə bəzi abonentlər normal qaydada su ala bilmir. Bütün bunlar nəzərə alınaraq həmin küçələrin içməli su təchizatı sistemlərinin yenidən qurulmasına qərar verilib.

F.Qurbanov küçəsində icra olunan layihə çərçivəsində küçə boyu 110 mm diametrli borularla yeni 3 km uzunluğunda su xətti çəkilir. Layihəyə əsasən. Yeni xətdən hər bir evə birləşmə verilərək sayğaclar quraşdırılacaq. Yeni çəkilmiş su xətti hər iki tərəfdən 450 mm və 630 mm diametrli magistral xətlərə qoşulacaq. Bu da həmin ərazidə suyun dairəvi hərəkətini təmin edəcək. Yeni yaradılan sistem hesabına abonentlər 24 saat fasiləsiz içməli su ilə təmin olunacaqlar.

Xocasən qəsəbəsinin Ruslan Allahverdiyev küçəsində və ATS yolu adlanan ərazidə icra olunan layihə çərçivəsində burada 280-100 mm diametrli borularla 5 km uzunluğunda su xətləri çəkiləcək. Yeni şəbəkədən abunəçilərə birləşmə verilərək sayğaclar quraşdırılacaq. Layihənin icrası sakinlərin içməli su təchizatını xeyli yaxşılaşdıracaq.

Hazırda Binəqədi rayonunda "Azərsu" ASC tərəfindən icra olunan kanalizasiya layihəsi də ekoloji baxımdan əhəmiyyət kəsb edir. Layihəyə əsasən Binəqədi qəsəbəsinin I Mədən küçəsindən (DSK yolu) keçən açıq kanal örtülü kollektorla əvəzlənir. Təxminən 300 metr məsafədə 1000 mm diametrli metal borularla daşıyıcı kollektor tikilir. Layihə çərçivəsində ətraf ərazilərdəki yaşayış evləri və obyektlərin tullantı sularının axıdılması məqsədilə kanalizasiya quyularının da tikintisi nəzərdə tutulub. İşlərin qısa müddətdə başa çatdırılması nəzərdə tutulur. Bununla da ərazidəki yaşayış evləri və obyektlərin məişət və təsərrüfat mənşəli tullantı sularının açıq kanallarla axıdılmasının qarşısı alınacaq.

İçməli suyun keyfiyyətinə nəzarət gücləndirilir

İstehlakçılara verilən içməli suyun keyfiyyətinin, həmçinin kənarlaşdırılan tullantı sularının tərkibinin ekoloji standartlar çərçivəsində nəzarətdə saxlanılması "Azərsu" ASC-nin prioritet vəzifələrindəndir. Səhmdar Cəmiyyətin Mərkəzi Laboratoriyası Bakı şəhəri və regionlarda içməli suyun keyfiyyətini və tullantı sularının standartlara uyğunluğunu nəzarətdə saxlayır.

2018-ci ildə "Azərsu" ASC-nin Mərkəzi Laboratoriyası və istehsalat müəssisələrinin laboratoriyaları tərəfindən 68 min içməli su və 25 min tullantı su nümunəsinin analizləri aparılıb.

Ötən il analizlərin əsas hissəsi Mərkəzi Laboratoriya tərəfindən aparılıb. İl ərzində laboratoriyada içməli və tullantı sularının 35 min nümunəsi əsasında 174 min parametr təyin edilib. Bu 2017-ci illə müqayisədə nümunə sayında 21 faiz, göstərici sayında isə 50 faiz artım deməkdir. Keyfiyyətə nəzarət sahəsində müşahidə olunan ciddi artım göstəriciləri yeni su mənbələrinin istismara verilməsi, modul tipli sutəmizləyici qurğuların "Azərsu" ASC-nin xidmətinə verilməsi sayəsində mümkün olub.

Ümumilikdə, içməli su nümunələri Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzi ilə razılaşdırılmış qrafik əsasında su anbarları, nasos stansiyaları və su şəbəkələri, eləcə də təhsil və səhiyyə müəssisələri, mühüm dövlət obyektləri, mehmanxana, idman kompleksləri və digər obyektlərdən götürülmüş 33 min su nümunəsi üzrə 158 min göstərici təyin edilib. Eyni zamanda Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmış qrafik əsasında təmizləyici qurğular, sənaye müəssisələri, şəhər kollektorları və s. nöqtələrdən götürülmüş 2400 tullantı su nümunəsinin 16 min parametri öyrənilib.

Hazırda "Azərsu" ASC-nin Mərkəzi Laboratoriyasında içməli və tullantı sularının 110 parametri üzrə analizlər aparılır.

Mərkəzi Laboratoriyanın təcrübəsindən istifadə etməklə 2018-ci ildə regional laboratoriyaların yaradılması işlərinə başlanılıb. Regional laboratoriyalar Azərbaycanın ən ucqar ərazisində yerləşən mənbələrdəki suyun keyfiyyət göstəricilərini də nəzarətdə saxlamaq imkanı yaradır.

"Azərsu" ASC karyera sərgisində

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) tələbə və məzunlar üçün ilk karyera sərgisi keçirilib. Tələbələrin məşğulluğunu artırmaq məqsədi ilə təşkil olunan sərgidə 70-ə yaxın dövlət və özəl təşkilat müəssisələr təmsil olunub. "Azərsu" ASC sərgidə xüsusi stendlə iştirak edib.

Sərginin açılış mərasimində Universitetin rektoru, professor Gülçöhrə Məmmədova bildirib ki sərgi tələbə və məzunların karyera imkanlarını artırmaq, məşğulluğunu inkişaf etdirmək, real iş imkanlarından yararlanmaq məqsədi ilə təşkil olunub.

1500-dən çox tələbə və məzunun iştirak etdiyi sərgi böyük maraqla qarşılanıb. Sərgidə vakansiyalar haqqında tələbələrə ətraflı məlumat verilib və onlardan işə qəbul üçün müraciət anketi toplanıb.